

1

# QAFQAZ XALÇALARI BOSTON İNCƏSƏNƏT MUZEYİNDƏ

***Hörmətli oxucular!***

***"Azərbaycan xalçaları" jurnalı tərcümələr rubrikasında İngiltərənin "Halı" jurnalında Boston İncəsənət Muzeyində sərgilənən, Qafqaz - Azərbaycan xalçalarından bəhs edən məqaləni təqdim edir.***

***Məqalədə həm ötən illərdə təşkil olunmuş sərgilər, həm də 2013-cü ildə keçirilmiş "Rudnik kolleksiyasından Qafqaz xalçaları" sərgisi işıqlandırılır.***

İncəsənət Muzeyi, 465 Hantinqton prospekti, Boston, Massaçusets, ABŞ.
Noyabr 2012 – Noyabr 2013
www.mfa.org

Boston (MFA) İncəsənət muzeyində Şərq xalçalarından ibarət sonuncu əsas sərgi Culiya Beylinin yardımı ilə 1998-ci ildə "Şərq elçiləri" adı ilə təşkil olunmuşdur. Lakin bu yaxınlarda muzey yalnız bir neçə diqqətlə seçilmiş əsər nümayiş etdirməklə, Şərq xalçalarının sərgisi üçün sadə, amma tam effektiv bir yanaşma qəbul etdi.

MFA-nın xalça kolleksiyasının ən böyük üstünlüyünü XV və XVII əsrlərə aid zərif klassik nümunələr təşkil edir. Üstəlik, bu sistem sonrakı dövrlərə məxsus yerli Nyu İnqlənd kolleksiyalarından kirayə alınmış xalçaları da nəzərə alır.

MFA-nın ardıcıl şəkildə Şərq xalçalarını nümayiş etdirmək istəyini ictimaiyyətin bu xalçaların mövcudluğu haqqında əhatəli məlumatlılığı və bu xalçalara incəsənətin bir növü kimi dəyəri proqnozlaşdırır. Sərgilər MFA-nın Bous-Arts (Bous Arts) binasının böyük zalına (Rotunda) bitişik və Hantinqton prospektində əsas girişin pilləkənlərinə yaxın yuxarıdakı sütunlu qalereyada keçirilir. Zalda (Rotunda) neoklassik sütunlar Con Sinqer Sargent tərəfindən çəkilmiş divar naxışları ilə örtülmüş tavanlara kimi 30 fut (30,5 sm) uzanır. Bous-Artsın abhavası, möhtəşəm divar naxışları və hündür tavanı zərif Şərq xalçalarını hündür divarlar boyu sütun cütlüklərinin arasında nümayiş etdirmək üçün çox gözəl imkanlar yaradır.

MFA 2010-cu ilin iyununda 4 Türk və Qafqaz xalçasını yerləşdirməklə, yeni xalça təşəbbüsü ilə çıxış etdi. Daha sonra MFA holdinqindən və yerli kolleksiyadan əldə edilmiş Çin xalçalarının 9 aylıq nümayişi başladı.

"Rudnik kolleksiyasından Qafqaz xalçaları" adlı sərginin isə 2013-cü ilin payızınadək davam edəcəyi gözlənilir. Bu sərgi Miçel Rudnikə məxsus 6 xalçanı əhatə edir. Xalçalar MFA-da Tekstil və Moda İncəsənəti Şöbəsinin kuratoru Loren Vitli tərəfindən seçilmişdir. O deyir: "Yalnız 6 xalça seçmək çətin idi. Nəhayət ki, kolleksiyaçıların baxışlarını və zövqlərini əks etdirən Qafqaz xalçalarının gözəlliyinin təqdimatını təmin edəcəyinə ümid bəslədiyim nümunələri seçdim".

Onun seçimlərində sevilməyən nə var ki? 3 Qazax nümunəsi, 2 Muğan və 1 Quba "Namazlığ"ı özözlüyündə çox gözəldir. Onların rəngi, quruluşu və ümumiyyətlə, mövcudluğu ecazkardır. Böyük qübbəli strukturun ətrafında yerləşdirilmiş və memarlıqla çox gözəl uyğunlaşan bu nümunələr daima buraya aid olmuş kimi görünürlər.

Miç və Rozali Rudniklərin Şərq xalçaları ilə "münasibət"i təxminən 30 il əvvəl başlayıb. O vaxt su kəməri partlayaraq onların evini və böyük hanada toxunmuş xalçalarını viran qoymuşdu. Onlar sığorta pulu ilə xalçaları əvəz etmək üçün axtarışlar aparmış və Şərq xalçalarını kəşf etmişlər. İntensiv araşdırmalardan sonra onlar öz arzuladıqlarını – XIX əsrin əvvəllərinə aid kənddə toxunmuş Qafqaz xalçalarını tapmışlar. Aydın qrafika, ahəngdar rənglər və qeyri-adiliklər onlara insan əlinin dəydiyindən xəbər verir. Rudniklərin fəlsəfəsi bir ərazidən hər bir növü və ya bir qalaq xalçanı əldə etməkdən ibarət deyildi. Əslində, onlar bədii tutumu olan bir kolleksiya yaratmaq istəyirdilər. Təbii ki, bu məqsədlərinə də nail oldular. Rozali uzun illər xalça ictimaiyyətində mühüm simalardan biri olub. 1980-ci illərin sonlarında o, daha iki xalça həvəskarı ilə - Cudi Smit və Keyt Vən Siver ilə köhnə Boston Xalça Cəmiyyətini "dirçəltdilər". O, "Yeni Boston Xalça Cəmiyyəti" adlanan quruma ilk 8 il ərzində başçılıq etdi. İndi Yeni İngilis Xalça Cəmiyyəti (YİXC) kimi tanınan qurum Amerikanın ən böyük xalça qrupudur və onun uğurları Rozalinin gərgin əməyinin nəticəsidir. Apreldə YİXC Rudnikin töhfələrini qeyd edəcək. Buraya Lorens Körninin çıxışı və onların əsərlərinin bəzilərinə bir axşamlıq baxış daxil olacaq.

Rozalinin mənə dediklərindən: "Cazibədar bir məkanın - xalça dünyasının bir parçası olmaq çox gözəldir. Biz o qədər gözəl insanlara rast gəlmişik ki..."

Miçel Rudnik məni sərgi ilə tanış edərkən dedi: "Bəzi xalçalarımızın MFA-da nümayiş üçün seçilməsi bizim üçün şərəfdir. Kolleksiya həyatımızın 30 ilindən çoxunun zirvəsidir. Xalçalarımız burada necə də füsunkar görünür!" MFA-nın indiki sərgisi üçün Rudnikin xalçalarını seçməsi müvafiqdir; bu, mühüm Nyu İnqlənd kolleksiyasını və xalça dünyasına öz töhfəsini verən cütlüklə tanışlıqdır.



3



2

Bundan əlavə, Nyu İnqlənd xalça icması MFA-ın Şərq xalçalarını belə gözəl bir şəraitdə bir daha nümayiş etdirmək istəyini alqışlayır.

*Ann Nikolas*

*(HALI 125, 2002, s.173, Karl Strokun "Profil: Miç və Rozali Rudnik"–dən götürülmüşdür)*

---

1) Sənət məbədi: Con Singer Sargentə məxsus 30 fut hündürlükdə neoklassik sütun və tavan rəsmləri ilə, MFA-in Bous-Art Rotundası Miçel və Rozali Rudnik kolleksiyasından olan Qafqaz xalçaları (ön plandakı nəşr edilməmiş "Ulduzlu Qazax" da daxil olmaqla) üçün əzəmətli bir yerdir.

2) Quba "Namazlığ"ı, Şimal-şərqi Qafqaz, XIX əsrin II yarısı, 0.94 x1.55 m (3'1" x 5'1"). Bu klassik "Bulud-yaxalığ"-a bənzəyən fərqli tağ təsvirli süd rəngli yerliyə malik əzəmətli "Namazlıq" Ceymz Opie tərəfindən "Qəbilə Xalçaları" kitabında nəşr edilmişdir (1992, tb. 5.10, s.71).

3) Qazax "Namazlığ"ı, Cənub-qərbi Qafqaz, hicri tarixi ilə 1243 (miladi 1827), 1.08 x 1.57 m (3'7" x 5'2"). Lorens Körni 2007-ci ildə Miçel və Rozali kolleksiyası (Meta-Art, HALİ 152, s. 62-71) barədə hesabatının sonunda bu gözəl "Namazlığ"ı "country-cousin" adlandırır və " mənim ən çox sevdiyim xalçadır" deyirdi. Bununla da xalçanın "eyni zamanda güclü, aydın və yumşaq olan parlaq, tünd qarpızı-qırmızı yerliyinə" və "möhtəşəm yun keyfiyyətinə" diqqət çəkirdi. Bu, Zaleski kolleksiyasındakı (bax: bu nəşr - illüstrasiya 8, s. 53) bir "Namazlıq"la əlaqəlidir.